# Degergundur Halım Kalkım

— *faramarz-abdollahpur* · 03 Mayıs 2024



Degərgundur halım qalxım gedim meyxanə meyxanə
Şərabe nabe doldır ver içim peymanə peymanə

Eləyim məstlik pişə dayansın əqlu əndişə
Gətirsin cismimi cuşə olum divanə divanə

Əlimlə qaldırım tişə dəli tək sındırım şişə
Qızışdırsın başım yeksər gəlim cövlanə cövlanə

Aparsın mənzele yarə çatırtsın nazlı dildarə
Eləsin biğəm avarə süzim məstanə məstanə

Əlimnən tişəni alsın qolını boynuma salsın
Dolansın başimə misle yanan pərvanə pərvanə

Qudurtsın eşqimi candan götürtsin pərdə pinhandan
Yetirsin cülvə canandan olum dürdanə dürdanə

Ayıtsın canı ğəflətdən qutarsın nəfsi zülmətdən

Gətirsin badə cənnətdən içim hərânə hərânə

Diriltsin cani dubarə  götirsin qəlbidən yarə
Tolatsın misle fəvvarə dönim həryanə həryanə